# Şəhid Nuran Mirzəyevin qəhrəmanlığı

tan silahlı qüvvələri cəbhəyanı yaşayış məntəqələrimizi atəşə tutdular. Müzəffər ordumuz düşmən təxribatına cavab olaraq əks hücum əməliyyatlarını həyata keçirməyə başladılar.

***Erməni terror dövlətinin növbəti təcavüzünə cavab olaraq 27 sentyabrdan başlanan torpaqlarımızın təmizlənməsi əməliyyatı Vətən Müharibəsinə çevrildi və uzun illərdən bəri həsrətində olduğumuz milli birlik, milli qürur hissləri ortaya qoyuldu.***

### *Səfərbərlik*

***elan olunan ilk günlərdən Nuran da atası Akifdən, anası Təranədən xeyir-dua alıb xalqın, millətin şərəf və ləyaqətinin yeganə təminatçısı olan müzəffər ordumuza qoşuldu.***

Nuran Mirzəyev 1993-cü ilin avqust ayından düşmən tapdağında olan Cəbrayıl və Qubadlı rayonlarının azad olunması uğrunda gedən döyüşlərdə fəal iştirak edib. "Mən Azərbaycan vətəndaşıyam, bu torpağı qorumaq mənim borcumdur", - deyirdi ləzgi igidi Nuran. Qorudu da. Əks hücum əməliyyatları nəticəsində Cəbrayıl rayonun Doşlu, Vələnd, Papı, Tulus, Qubadlı rayonun Padar, Əfəndilər, Yusifbəyli və s. yaşayış məntəqələrinin işğaldan azad edilməsində igidlik və mərdlik göstərərək döyüş bacarığını dəfələrlə sübut etdi.

***Nuran imkan tapanda ata-anası ilə əlaqə saxlayardı. Sonuncu dəfə oktyabrın 17-də atası Akifə atdığı mesajda yazmışdı: "Salam ata, salam ana! Məndən nigaran olmayın. İşğalda olan şəhər və kəndlərimizi***



bölüyü xilas etmişdir. Döyüş yoldaşlarının dediklərinə görə seyrək meşə sahəsində düşmən üzərinə növbəti hücum əməliyyatı zamanı Nuran bölüyün qabağında gedirmiş. Birdən onun boynuna nazik bir məftil ilişir. Nuran qışqırıb əskərlərə bildirib ki, tez geriyə çəkilsinlər, ərazi minalanıb.

### *Döyüş yoldaşları*

onu da əlavə ediblər ki, sağ-salamat sevdiklərinə qovuşmaları Nuranın sayəsindədir. Həyatımız boyu ona borcluyuq.

***Bəli, ulu dünyamızın qəribə döngələri vardır, İlahi. Afaq və Şəfəq bacıların tək qardaşı olan oğlu haqqında həmişə fəxrlə danışan Akifin ağlına belə gəlməzdi ki, bir gün şəhid ciyərparəsi Nuranın ək-***

Budur, qarşımda qürurlu, eyni zamanda gözləri sual dolu bir ana dayanıb.

Qeyrətli, vüqarlı yurd yetirməsi, qəhrəman oğul anası - Təranə ana. O,Nuran balanı belə xatırlayır :

**- Cəsur, dediyindən dönməyən oğul idi balam. Bilirdi ki, Vətən dardadır, ona kömək lazımdır. Odur ki, tərəddüd etmədən döyüşə getdi.**

**Axırda Tanrı əlimizdən aldı onu. Balamın ölümü bizi sarsıtsa da, təsəllimiz odur ki, torpaqlarımız azad olundu. Şəhidlərimizin qisası alındı.**

Nuran Mirzəyev 2020-ci ilin oktyabr ayının 21-də Qımıl kənd qəbiristanlığında dəfn edilmişdir. Subay idi.

### *Rahat yat, qardaş!*

**Uğrunda öldüyün Vətən həmişə səni isti ağuşunda əziz-xələf övladı kimi əzizləyəcək, hörmətlə anacaq, qəhrəmanlığınla fəxr edəcək.**

**Vətən müharibəsində göstərdiyi şücaət və qəhrəmanlıqlarına görə "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə", "Qubadlının azad olunmasına görə" və "Cəsur döyüşçü" medalları ilə təltif olunmuşdur.**

**Qımılda onun xatirəsinə həsr olunmuş "Şəhid bulağı" kompleksi yaradılıb.**

**Şixəmməd Seyidməmmədov, ADPU-nun Quba filialının "Təbiət fənləri və onun tədrisi metodikası" kafedrasının baş müəllimi, Azərbaycan Yazıçılar və Jurnalistlər birliklərinin üzvü**

ədalət.- 2021.- 18 may.- S.6.